# ƏMƏKDAR RƏSSAM ƏYYUB HÜSEYNOVUN YARADICILIĞINDA NAXÇIVAN TƏBİƏTİNİN TƏSVİRİ

**Xəzər Zeynalov**

*AMEA-nın Memarlıq və İncəsənət İnstitutu, Bakı*
*khazar.zeynalov@yandex.ru*

Əməkdar rəssam Əyyub Hüseynov (1916-1998) rəngarəng palitrası, zəngin və dərin rəng yaxmaları ilə seçilən rəssamlardan olmuşdur. Onun yaradıcılığı tematikasının genişliyi ilə seçilir. Əyyub Hüseynov portret, məişət, mənzərə və başqa janrlarda əsərlər yaratmışdır. Əsasən yağlı boya ilə işləyən rəssamın sulu boya və karandaşla çəkilmiş etüdləri, rəsmləri də vardır.

Digər mövzularla yanaşı, Əyyub Hüseynovun yaradıcılığında xarici tematika da mühüm yer tutur. Bir çox Azərbaycan rəssamı kimi, o da ötən əsrin 50-80-ci illərində müxtəlif ölkələrdə yaradıcılıq

ezamiyyətində olmuş, zəngin təəssüratlarla geri dönmüş, gördüklərini kətan üzərində canlandırmışdır. Bir rəssam kimi Əyyub Hüseynovun maraq dairəsi geniş olsa da, onun yaradıcılığında mənzərə janrı xüsusi yer tutur. Rəssamın tablolarının böyük əksəriyyəti məhz mənzərə janrında işlənmişdir. Yaradıcılığının bütün dövrlərində mənzərə janrı Əyyub Hüseynovun sevə-sevə müraciət etdiyi janr olmuşdur.

Rəssamın mənzərə janrında işlədiyi tablolarda Naxçıvan lövhələri ətraflı təmsil olunub. Doğulub boya-başa çatdığı bu qədim yurd yerimizin səfalı təbiəti onu erkən gənclik illərindən özünə cəlb edirdi. Tbilisi Rəssamlıq Akademiyasında təhsilini başa vurub Bakıya qayıtdıqdan və Azərbaycanın tanınmış rəngkarlarından biri olandan sonra da rəssam Naxçıvanla əlaqələrini kəsməmiş, demək olar ki, hər yay doğma yurda üz tutmuş, onun təbiət gözəlliklərini, zəhmətkeş insanlarının fədakar əməyini kətan üzərində təcəssüm etdirmişdir.

Rəssam doğma Naxçıvanın müxtəlif mənzərələrini realist səpkidə əks etdirib. O dövrün rəssamları ənənəvi olaraq realizm üslubunda əsərlər yaradırdılar. Əyyub Hüseynov da dövrünün əksər rəssamları kimi öz mənzərə əsərlərini realist üslubda işləmişdir. Lakin onun dəst-xəttində incə lirika və romantik ovqat özünü aydın büruzə verir. Bu xüsusiyyət Naxçıvan mənzərələrinə də aiddir.

Əyyub Hüseynovun Naxçıvan mövzusunda çəkdiyi əsərlərdən "Dağ mənzərəsi" (1967), "Arpa çayı" (1968), "Qədim qoz ağacı" (1967), "Naxçıvan mənzərəsi" (1961), "Qoca palıd", "Dağ mənzərəsi" (hər ikisi 1978), "Mənzərə" (1979), "Araz çayı", "Çay kənarında" (hər ikisi 1980), "Göy kolorit" (1989) və başqalarını göstərmək olar.

Əyyub Hüseynovun Naxçıvan təbiəti təsvirlərində üç tematik təsvir tipi özünü büruzə verir. Bunlar meşələr, çaylar və dağlardır. Əgər diqqət yetirsək, görərik ki, Naxçıvan diyarının təbii landşaftının formalaşmasında məhz bu üç təbii komponent mühüm rol oynayır. Çoxlarının təsəvvüründə Naxçıvan daha çox arid iqlimə malik quru yer kimi canlansa da, burada səfalı guşələr, meşəli ərazilər də az deyil. Əyyub Hüseynovun çəkdiyi Naxçıvan meşələri daha çox lirik-romantik məzmunu ilə seçilir. Çünki Naxçıvan zonasında məhz meşələr və çay kanarındakı yaşıl vadilər lirik məzmunun əks etdirilməsi üçün daha münasibdir.

Əyyub Hüseynov meşə təsvirlərini əksər hallarda yaxın planda işləyib. Ona görə də rəssamın bir çox meşə təsvirləri ağac, yaxud ağaclar kimi qavranılır. O, bəzən işlədiyi meşə təsvirində bir ağacı ön planda, digərlərini isə bir qədər arxada əks etdirir. Misal üçün, "Qədim qoz ağacı" tablosu belələrindəndir. Sarı-qırmızı yaxmalarla verilmiş əsərdə ön planda qədim, gövdəli qoz ağacı görünür. Ağacın azman gövdəsi sanki güc, qüvvət rəmzidir. Arxada isə digər ağaclar diqqəti cəlb edir. Tablonun ümumi görünüşündə lirikadan daha çox romantizm əhval-ruhiyyəsi özünü büruzə verir.

Meşə təsvirləri Əyyub Hüseynovun yaradıcılığında müəyyən qədər əsrarəngiz təsir bağışlayır. Bu, yəqin ki, rəssamın meşələrə rəmzi müstəvidə yanaşmasının göstəricisidir. Çünki meşələr planetimizin ağ ciyərləridir, meşə təkcə rəssamların ilham mənbəyi deyil, o, həm də, sözün həqiqi mənasında, həyat mənbəyidir. Əyyub Hüseynovun meşə, ağac təsvir edilmiş tablolarının həm əsrarəngiz, həm də lirik-romantik təsir bağışlaması rəssamın meşəyə fəlsəfi münasibətini əks etdirir. Bu fəlsəfənin əsasında həyat dayanır. Yəqin ki, "həyat ağacı" ifadəsi boşdan yaranmayıb. Ağac, meşə olan yerdə həyat da var. Rəssamın meşə təsvirlərinin ideya-bədii əsasında bu sadə, lakin müdrik həqiqət əks etdirilir.

Əyyub Hüseynovun Naxçıvan mənzərələrində ikinci tematik təsvir tipi çaylardır. Diqqət yetirsək, çay ilə meşə arasında ciddi bağlılıq olduğunu görə bilərk. Bu bağlılıq həm real, həyati, həm də rəmzi məna çalarlarına malikdir. Əgər meşə təmiz hava mənbəyidirsə, çay da həmin meşəni həyat üçün vacib olan su ilə təchiz edir. Deməli, meşə, ağac kimi, çay da həyat mənbəyidir. Dilimizdə belə bir deyim var: "hava və su kimi gərəkli". Əyyub Hüseynovun Naxçıvan mənzərələrində bu iki mühüm komponenti – həm havanı (planetimizin yaşıl ağ ciyərləri olan ağaclar və meşələr timsalında), həm də suyu (həyat mənbəyi olan çayların timsalında) aydın görmək mümkündür. Rəssam realizm ənənələrinə riayət etməklə, öz mənzərə əsərlərində dərin rəmzi mənanı əks etdirmişdir. Onun əsərlərinə nəzər saldıqda ekoloji problemlərin aradan qaldırılmasının təbii yollarını asanlıqla görüb duymaq olur. Bunun üçün havanın, meşənin və suyun qədrini bilmək lazımdır. Rəssam bu mühüm həqiqəti incəsənətin təsirli dili ilə insanların diqqətinə çatdırmışdır. Yaşıl təbiət rəssamın əksər tablolarında bu və ya digər dərəcədə özünü büruzə verir və müasir dillə desək, ekoloji mövzularla şüurumuzda assosiasiya olunur.

Əyyub Hüseynovun Naxçvan mənzərələrindəki üçüncü tematik təsvir tipi dağlardır. Naxçıvan təbiətinin ayrılmaz hissəsi olan dağlar rəmzi surətdə əyilməzliyi, vüqarı ifadə edir. Naxçıvan dağları düşmənə daim sinə gərmiş, ər oğullar kimi onun qarşısını kəsmişdir. Məhz buna görədir ki, Əyyub

Hüseynovun Naxçıvan təsvirlərində dağlar möhtəşəmlik, qətiyyət simvolu kimi gözlərimiz önündə canlanır. Rəssamın "Naxçıvan mənzərəsi" (1970) adlı tablosu maraq doğurur. Arxa planda dağlar, o cümlədən məşhur Haçadağ (İlandağ), ön planda isə yamyaşıl meşələr, bağlar əks olunmuşdur. Kompozisiyanın mərkəzi hissəsində isə Naxçıvan şəhəri görünür. Rəssam şəhəri dağların və meşələrin əhatəsində təsvir etməklə onun qürurunu və həyat mənbəyi olmasını rəmzi şəkildə əks etdirmişdir (şəkil 1).

Əyyub Hüseynovun başqa bir mənzərə əsəri "Araz çayı" (1980) adlanır. Əsərdə sıldırımlı sahillərin arası ilə axan Araz çayı lirik planda təsvir olunub. Rəssam Araz çayına həyat mənbəyi olan su kimi nəzər yetirmiş, onu rəmzi müstəvidə əks etdirmişdir (şəkil 2).

Sonda vurğulayaq ki, Əməkdar rəssam Əyyub Hüseynovun Naxçıvan lövhələri ötən əsrin 50-80-ci illərində yaradılmış milli mənzərə janrının kamil nümunələridir. Zəngin rəng həlli, sərbəst yaxmalar, lirik məzmun rəssamın bədii üslubunun əsas cəhətləridir. Onun yaradıcılığında təbiət simvolları aydın əks olunmuşdur. Bu təsvirlər həm təsviri sənət, həm də ekologiya baxımından böyük maraq doğurur.



**Şəkil 1.** Naxçıvan mənzərəsi. Kətan, yağlı boya. 1970.



**Şəkil 2.** Araz çayı. Kətan, yağlı boya. 1980.